# Vətəndaş qəbulu



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri və irəli sürdükləri təkliflər RİH başçısı tərəfindən dinlənilmiş, bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür.



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin də iştirak etdiyi qəbulda vətəndaşların müraciətləri RİH başçısı tərəfindən dinlənilib, irəli sürülən təklif və müraciətlərin bir qismi yerindəcə həll olunub, digərlərinin həlli nəzarətə götürülüb.

# ”Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir“



“Heydər Əliyev İli” çərçivəsində Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir” mövzusunda konfrans keçirilmişdir. Konfrans iştirakçıları ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, abidə önünə gül dəstələri düzərək dahi şəxsiyyətin xatirəsinə böyük hörmət və ehtiramlarını bildirmişlər. Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə müəssisə və təşkilatların nümayəndələrinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyətinin iştirakı ilə keçirilən konfransda ilk olaraq Azərbaycanın Dövlət Himni səslənmiş, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayev qonaqları və konfrans iştirakçılarını salamlayaraq ümummilli lider Heydər Əliyevin irsinin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışdığını qeyd etmiş və bu ənənənin bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulamışdır. Tədbirdə çıxış edənlər ümummilli lider Heydər Əliyevin Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşməsində, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranmasında, tolerantlıq və multikulturalizm ənənələrinin yüksək qiymətləndirilməsində və milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanmasında böyük xidmətləri olduğunu bildirmişlər. Sonda “Ulu öndər Heydər Əliyevin irsi milli sərvətimizdir” adlı videoçarx nümayiş olunmuşdur.



# Kompleks mülki müdafiə təlimi

"Azərbaycan Respublikasının 2023-cü il üçün Mülki müdafiə tədbirləri planı" çərçivəsində 31 may - 2 iyun 2023-cü il tarixlərində Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəhbərliyi ilə Qəbələ rayonunda "İrimiqyaslı fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə orqan və qüvvələrinin idarə edilməsinin təşkili" mövzusunda kompleks mülki müdafiə təlimi keçirilib. Öncə, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyularaq, Ulu Öndərin xatirəsi dərin ehtiramla yad edilib. Kompleks mülki müdafiə təlimi ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində keçirilən müşavirədə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin nümayəndələri, Şimal-Qərb Regionlarının icra hakimiyyətlərində fəaliyyət göstərən fövqəladə hallar üzrə komissiyaların sədrləri və Qəbələ rayonundan təlimlərə cəlb edilmiş təşkilatların əməkdaşları iştirak etmişdir. Müşavirəni giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev təlimin vacibliyindən danışaraq, mülki müdafiə sahəsində birgə fəaliyyətin və əməkdaşlığın əhalinin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm rol oynadığını vurğulayıb. Tədbirdə çıxış edən FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov fövqəladə hadisələr zamanı mülki müdafiənin əhəmiyyəti, təşkili və mülki müdafiə tədbirlərinini icra vəziyyətindən danışaraq, bu sahədə idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin vacibliyindən, fövqəladə halların nəticələrinin aradan qaldırılması istiqamətində qarşılıqlı fəaliyyətin faydasından bəhs edib. Qəbələ rayonunda təşkil olunan kompleks təlimin əhəmiyyətindən danışan N.Zamanov qeyd edib ki, mülki müdafiənin təmin edilməsi üzrə Nazirliklə yanaşı rayonun bütün idarə, müəssisə və təşkilatları, mülki müdafiə dəstələri, qərargahlar və mülki müdafiə sahəsinə cavabdeh şəxslərin üzərlərinə böyük məsuliyyət düşdüyündən təhlükə yaranan zaman birgə fəaliyyətin təşkilinə nail olunmalıdır. Sonra kompleks mülki müdafiə təliminə start verilib. Təlimin keçirilməsində məqsəd fövqəladə hadisələr zamanı mülki müdafiənin idarəetmə orqanlarının qarşılıqlı fəaliyyətinin təşkil edilməsi və birgə fəaliyyət mexanizminin təkmilləşdirilməsi, mülki müdafiə dəstələri tərəfindən qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasının təşkili və həyata keçirilməsi, əhalinin fövqəladə hallar zamanı təhlükəsiz davranış qaydaları üzrə maarifləndirilməsi, iştirakçıların fövqəladə halların nəticələrinin aradan qaldırılması işinin təşkili sahəsində bilik və bacarıqlarının artırılmasıdır. Təlim iştirakçıları tərəfindən Nazirliyin xilasetmə qüvvələri ilə rayonun mülki müdafiə qüvvələri arasında xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması zamanı qarşılıqlı fəaliyyətin və idarəetmənin təşkili, xəsarət alanlara tibbi yardımın göstərilməsi, zərərçəkmiş əhalinin müvəqqəti olaraq təhlükəli zonalardan köçürülməsi və rayonun həyat təminatının bərpası ilə bağlı tədbirlərin təşkili, qəza-bərpa işlərinin yerinə yetirilməsi tədbirləri də reallaşdırılıb. Kompleks təlimə FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsi, Dövlət Yanğından Mühafizə Xidməti, Mülki müdafiə qoşunları, Xüsusi Riskli Xilasetmə Xidməti, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və Şimal-qərb Regional Mərkəzinin, rayonun hərbiləşdirilməmiş mülki müdafiə dəstələrinin ümumilikdə 354 nəfər şəxsi heyəti və 53 ədəd texnikası cəlb edilib.






# Qəbələ Rafting Mərkəzinin açılışı olmuşdur

20 iyun 2023-cü il tarixdə Gabala Hospitality Groupun nəzdində fəaliyyət göstərəcək Qəbələ Rafting Mərkəzinin açılışında rayon icra hakimiyyətinin, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının, Gabala Hospitality Groupun, o cümlədən rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və KİV nümayəndələri iştirak etmişdir. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev son illər “Regionların Sosial İqtisadi İnkişafı” Dövlət Proqramına uyğun olaraq respublikanın digər bölgələrində olduğu kimi, Qəbələ rayonunun da iqtisadi, sosial-mədəni və turizm sahəsində sürətlə inkişaf etdiyini qeyd edərək, bu gün istifadəyə verilən ölkəmizdə ilk və yeganə olan “Rafting” Mərkəzinin rayonumuzda turizmin inkişafına böyük təkan verəcəyini bildirmiş və belə bir möhtəşəm mərkəzin yaradılmasında əməyi olan hər kəsə rayon ictimaiyyəti adından təşəkkür etmişdir. Digər çıxış edənlər ölkə ərazisində turizmin gündən-günə inkişaf etdiyini vurğuluyaraq, turizmin inkişafında qarşıya qoyulan məqsəd və hədəflərə çatmaq üçün həyata keçirilən uğurlu layihələrin təcrübəsindən bəhs etmiş, turizmə olunan diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər. Sonra tədbir iştirakçıları Qəbələ Rafting Mərkəzi ilə tanış olmuşlar.

